

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 219 (23.861)

25 noyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə edilib, bu il ticarət dövriyyəsinin 7 faiz artdığı qeyd olunub. Rusiya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyi bildirilərək, Prezident İlham Əliyevin bu işdə dəstəyinin önəmi vurğulanıb. Bildirilib ki, görüş keçirildiyi vaxtda, eyni zamanda Azərbaycan-Rusiya işgüzar dairələri arasında da danışıqlar davam edir.

Görüşdə Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu məsələləri geniş müzakirə olunub. Əminlik ifadə edilib ki, Azərbaycan-Rusiya münasibətləri müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcək.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyəti və eləcə də gələcək planlar haqqında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı İlham Əliyev bu sahədə göstərdiyi səylərə görə Aleksey Overçuka təşəkkürünü bildirib.

## “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında xalça və xalça məmulatlarının istehsalını, satışını və bu sahənin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış cəmiyyətin nizamnaməsini və ştat strukturunu hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin təşkili üçün zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 noyabr 2021-ci il*

## “Bank Savadlılığı Layihəsi” çərçivəsində tədbir olub



*Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən “Bank Savadlılığı Layihəsi” çərçivəsində Naxçıvan Dövlət Universitetinin tələbələri üçün “Mərkəzi Bankçılıq və Milli Pul Nişanları” adlı tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev açaraq tədbirin keçirilməsinin tələbələrin bank məhsul və xidmətlərini başa düşməsinə, onlarda rasional seçimlər etmək üçün zəruri olan məlumatlılıq səviyyəsinin artırılmasına və bacarıqlarının inkişaf etdirilməsinə və əldə olunan biliklərin onların gələcək uğurlu karyerasına da öz töhfəsini verəcəyini qeyd etmişdir.

Sonra Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev “Bank Savadlılığı Layihəsi” çərçivəsində İdarə tərəfindən istehlakçıların bank savadlılığının artırılması və bu yolla onların hüquqlarının qorunmasına yönəlmiş müxtəlif tədbirlər həyata keçirildiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, tədbirin keçirilməsində məqsəd bank savadlılığının ictimai dəyər kimi tanınması, tələbələrin savadlılıq səviyyəsinin artırılması, həmçinin bank məsələləri ilə bağlı düzgün qərarların verilməsini dəstəkləmək, bank sektoru ilə əlaqəli öyrənilən bilik və bacarıqların Mərkəzi Bank əməkdaşları ilə birlikdə daha da təkmilləşdirilməsindən ibarətdir.

Daha sonra videobağlantı ilə tədbirə qoşulan Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev qarşılıqlı əməkdaşlıq çərçivəsində belə tədbirlərin keçirilməsini yüksək qiymətləndirmişdir.

Tədbir zamanı iştirakçılara Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin “Bank Savadlılığı Komandası”nın üzvləri tərəfindən Mərkəzi Bankın inkişaf yolu, məqsəd və funksiyaları, pul siyasəti, valyuta ehtiyatlarının idarə olunması, milli pul nişanlarının dizaynı və digər mövzular elektron slaydlarla tədris olunmuş, suallar cavablandırılmışdır.

Sonda iştirakçılar arasında oyun əsaslı tədris platforması olan “Kahoot” sistemi vasitəsilə yarışma keçirilmiş və ilk üç komandaya “Zəfər Yolu” kitabı, oxunması zəruri olan kitablar, sertifikatlar, “Naxçıvanbank” ASC, “Beynəlxalq Bank” ASC-nin və “Azər-Türk Bank” ASC-nin yerli filialları tərəfindən hədiyyələr təqdim edilmişdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *“Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmalar”ın genişləndirilməsi mövzusunda görüşlər keçirilib*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında “Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın icrası ilə bağlı cari ilin ötən dövründə muxtar respublikanın bütün rayonlarını əhatə etməklə 27 halda qəsəbə və kənd mərkəzlərində maarifləndirici görüşlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirlərdə nağdsız ödənişlərin üstünlükləri haqqında danışılaraq bildirilib ki, onun tətbiq edilməsinin rahat olması, üzərində böyük miqdarda nağd pul daşımağa ehtiyac qalmaması, həm ölkə daxilində, həm də xaricdə alış-veriş üçün ödəniş imkanının olması, kommunal və ya mobil xidmətləri nağdsız ödəmək mümkünlüyü sakinlərin rahatlığına xidmət edir.



Diqqətə çatdırılıb ki, muxtar respublika ərazisində nağdsız ödəniş vasitələrinin həcminin artırılması daim diqqət mərkəzində saxlanılmaqla, POS-terminallar Naxçıvan şəhərində, rayon mərkəzlərində, böyük kənd yaşayış mərkəzlərində quraşdırılır, bu vasitələrə əhalinin əlçatanlığı təmin edilir. 1 noyabr 2021-ci il tarixə muxtar respublika ərazisində quraşdırılan bankomatların sayı 109 ədəd, POS-terminalların sayı 1501, o cümlədən 758 ədədi təmassız ödənişi dəstəkləyən POS-terminallar təşkil edir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə quraşdırılan POS-terminalların sayında 165, ödəmə terminallarının sayında 26 ədəd artım müşahidə olunub. “Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmalar”ın genişləndirilməsi istiqamətində görülmüş işlərin nəticəsidir ki, 2021-ci ilin 10 ayında muxtar respublika üzrə nağdsız ödənişlərin həcmi 96 milyon 205 min manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 milyon 80 min manat artmışdır. Nağdsız ödənişlərin 30 milyon 195 min manatı POS-terminallar, 66 milyon 10 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib.

Bildirilib ki, əhalinin nağdsız ödənişlərə həvəsləndirilməsi, onlarda bu əməliyyatların vərdiş halına salınması üçün proqrama uyğun olaraq 2014-cü ildən ildə 2 dəfə olmaqla, həvəsləndirmə tədbirləri həyata keçirilir və bu günə kimi keçirilmiş 15 tirajda 4302 muxtar respublika sakininə 265 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Şahbuz rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilib.*

## Nəticələr müzakirə edilib

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev tədbirdə çıxış edərək təhsilin inkişafına göstərilən dövlət qayğısından, Şahbuz rayonunda da bu istiqamətdə görülən tədbirlərin ali və orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında abituriyentlərin yüksək nəticələr əldə etmələrinə stimul verməsindən bəhs edib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, Şahbuz Rayon Təhsil Şöbəsinin tabeliyində 23 tam orta məktəb, 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ümumtəhsil məktəblərində 413 sinifdə 2 min 120 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 641 müəllim məşğul olur. Çıxışda təhsilə göstərilən dövlət qayğısı sayəsində rayonun bütün ümumtəhsil müəssisələrinin infrastrukturunun yenilənməsi haqqında məlumat verilib.

Nazir qeyd edib ki, Şahbuz Rayon Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 144 məzunundan 137-si və ya məzunların 95,1 faizi ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermiş, imtahanda iştirak edənlərdən 110-u və ya 80,3 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. 21 məzun imtahanlarda 500-700 bal arası nəticə göstərmiş, onlardan 1-i “Qızıl”, 2-si “Gümüş” nişana, 3-ü isə fərqlənmə attestatına layiq görülmüşdür.

Təhsil naziri Şahbuz rayonunun 2020-2021-ci tədris ili üzrə qəbul nəticələrinin muxtar respublika orta göstəricisindən yüksək olduğunu bildirib, qeyd edib ki, Şahbuz şəhər 2 nömrəli, Ağbulaq, Ayrınc, Daylaqlı, Güney Qışlaq, Kolanı, Mahmudoba, Nursu, Qızıl Qışlaq, Sələsüz və Şada kənd tam orta məktəblərinin məzunlarının hamısı ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Bununla yanaşı, Kükü kənd tam orta məktəbi 89 faiz, Badamlı qəsəbə tam orta məktəbi 80 faiz, Yuxarı Qışlaq kənd tam orta məktəbi 75 faiz, Şahbuz şəhər 1 nömrəli tam orta məktəb 73,3 faizlə qəbulda ən yaxşı nəticə göstərən məktəblər olmuşdur. Nazir rayonda fəaliyyət göstərən 23 məktəbdən 15 məktəbin nəticəsinin yaxşı olduğunu bildirib, həmin məktəblərin kollektivlərinə təşəkkür edib. Bununla yanaşı, 2020-2021-ci tədris ili üzrə Biçənək, Badamlı kənd, Şahbuzkənd və Türkeş kənd tam orta məktəblərinin nəticələrinin zəif olduğu diqqətə çatdırılıb, cari tədris ilində fəaliyyətin gücləndirilməsi ilə bağlı tapşırıqlar verilib.

Sonda Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən ötən tədris ilində keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən Şahbuz şəhər 2 nömrəli, Ağbulaq, Ayrınc, Daylaqlı, Güney Qışlaq, Kolanı, Mahmudoba, Nursu, Qızıl Qışlaq, Sələsüz, Şada, Şahbuz şəhər 1 nömrəli, Badamlı qəsəbə, Kükü və Yuxarı Qışlaq kənd tam orta məktəblərinə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

“Şərq qapısı” – 100

# Naxçıvanda media siyasəti: informasiya blokadasından qlobal yayıma



### Naxçıvanda media siyasəti: dünən və bu gün

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda işlədiyi dövrdə bu diyarda informasiya blokadasını yarmaq üçün mühüm işlər həyata keçirdi, yerli və beynəlxalq media orqanları ilə əlaqələr qurulması uğrunda gərgin əmək sərf etdi. Bunun nəticəsində muxtar respublikada Azərbaycan Televiziyasının yayımı bərpa edildi, Naxçıvan dünyaya açıldı. Naxçıvan Televiziyasının yayımı və “Şərq qapısı” qəzetinin nəşri üçün sistemli tədbirlər həyata keçirildi. Ulu öndərin həyata keçirdiyi xilaskarlıq missiyasını öz səhifələrində əks etdirən “Şərq qapısı” qəzeti nəinki muxtar respublikada, eləcə də ölkəmizdə əl-əl axtarılan mətbuat orqanına çevrildi.

Məhz həmin illərdə yeni dövrün dövlət-mətbuat münasibətlərinin uğurlu nəticəsi olaraq kütləvi informasiya vasitələri Heydər Əliyev siyasətinin ardıcıl və düzgün həyata keçirilməsində üzərlərinə düşən səfərbəredici missiyanı layiqincə yerinə yetirməyə çalışdı. Bu həm də müasir Naxçıvan mətbuatının yaranması ilə nəticələndi.

Müstəqilliyin ilk illərindən bu günə qədər mətbuatın inkişafı ilə bağlı Naxçıvanda həyata keçirilən tədbirlərə nəzər salanda, sözün həqiqi mənasında, muxtar respublikada müasir və güclü mətbuatın formalaşmasında böyük işlər həyata keçirildiyini görürük. Mətbuata dövlət dəstəyi, jurnalistlərə hərtərəfli iş şəraitinin yaradılması, Naxçıvan Mətbuat Şurasının təsis edilməsi, Televiziya və Radio Şurasının yaradılması, Naxçıvan Mətbuat Şurasının Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv qəbul olunması, milli mətbuatımızın yaranmasının ildönümlərinin yüksək səviyyədə qeyd olunması, “Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti” fəxri adının təsis edilməsi, işində fərqlənən jurnalistlərin əməyinin layiqincə qiymətləndirilməsi Naxçıvan mətbuatının inkişafı istiqamətində atılan mühüm addımların və diqqətin göstəricisi olmaqla, mətbuatımızın dünənki çətin mənzərəsinin bugünkü müasir inkişafa çevrilən yolunda hər birimizi canlı şahidə çevirib.

Artıq Naxçıvan bir zaman məkrli siyasət və təcavüz nəticəsində Ermənistan tərəfindən zorla salınan blokadanı informasiya baxımından çoxdan yarıb, düşmənlə aparılan informasiya savaşında cəbhəni bu istiqamətdə darmadağın edib. Əsl intibah dövrünü yaşayan Naxçıvan region mətbuatının da intibah dövrünə imza atıb. Azərbaycan mediasının güclü bir qolunu təşkil edən və “Şərq qapısı” qəzeti ilə təşəkkül tapan Naxçıvan mətbuatı bölgənin dününü, bu gününü qəzetlərin səhifələrinə həkk edib.

Həmin illərin nəşrlərinə nəzər salanda Naxçıvan şəhərinin 8 kilometrliyində çıxan duzun mağazalarda tapılmamasından, bu yerlərdə qatarların nə şərqdən qərbə, nə də qərbdən şərqə getməməsindən, şəhər daxilində, küçə və yolların kənarında yaşıllıqların azlığından, təmir-bərpa işlərinin şəhər landşaftını pozmasından, əlaqədar təşkilatların biganəliyindən, dəftərsiz şagirdlərdən, yanacağın olmamasından, qış günlərində məktəblərin normal fəaliyyət göstərməməsindən, qırışığı açılmayan uşaqlardan, iqtisadi həyatın pozulmasından, material çatışmazlığından, mağazaların boş qalan vitrinlərindən, ərzaq qıtlığından, iqtisadi və mənəvi zərərlərdən bəhs edən çoxlu sayda yazılar görə bilərik. Bütün bunlar həmin dövrün acı gerçəkləri, danılmaz reallığı idi...

Aradan ötüb keçən zaman isə həmin mənzərəni və mətbuatın haqqında bəhs etdiyi mövzuları tamamilə dəyişdirdi. İndi mətbuat qeyrətli oğullarının Vətən müharibəsindəki şücaət və qəhrəmanlıqlarından, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizindən, Azərbaycanı Türkiyə ilə bağlayacaq Qars-İqdır-Naxçıvan dəmir yolundan, muxtar respublikanın yaşıllıq zolaqlarından, ən ucqar kəndlərdə belə, tikilmiş müasir təhsil ocaqlarından, pulsuz dərs vəsaitləri ilə təmin olunan şagirdlərdən, mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunan müasir inzibati, tədris və yaşayış binalarından, müasir yol-nəqliyyat infrastrukturundan, sənaye müəssisələrindən, ərzaq və qeyri-ərzaq məhsulu istehsalından, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasından, bu torpaqların ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsindən fəxr və qürurla bəhs edir...

Bu gün muxtar respublikanın müasir mənzərəsini tərənnüm etməklə yanaşı, 400-ə yaxın üzvü ilə informasiya müharibəsi aparan Naxçıvanın media ordusu tənqiddən təqdirə qədər çətin və şərəfli bir yol keçərək bu günün mənzərəsini, inkişafı, tərəqqini tarixə çevirərək salnaməşdirir.

### Mətbuatın təkanverici qüvvəsi: dövlət qayğısı

Ulu öndərin Naxçıvandan başlatdığı, digər sahələrlə yanaşı, mətbuatı da əhatə edən müdrik siyasətinin Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsi nəticəsində muxtar respublika mətbuatı yeni inkişaf mərhələsinə qovuşub. İctimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir. Bu sahədə atılan ilk addım Ali Məclis Sədrinin 2000-ci il martın 29-da “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” imzaladığı Sərəncam oldu.

2010-cu il iyulun 22-də “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 fevral tarixli “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi haqqında” Sərəncamı müvafiq sahənin inkişafı üçün dövlət qayğısının daha bir nümunəsinə çevrildi.

Naxçıvan Televiziyasına yeni çəkiliş avadanlıqlarının alınması, Naxçıvan Televiziyasının saytının, “Nuhçıxan” İnformasiya Agentliyinin və “Şərq qapısı” qəzetinin internet saytlarının təkmilləşdirilməsi, “Kanal 35” televiziyasında yeni avadanlıqların quraşdırılması kütləvi informasiya vasitələrinin müasir tələblərə cavab verəcək şəkildə təmin olunması üçün həyata keçirilən dövlət siyasətinin hərəkətverici qüvvəsi oldu. Bu illər ərzində Naxçıvan teleradiosunun müstəqil kanalda yayımlanmağa başlaması, analoq yayımın yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənməsi, Naxçıvan Televiziyasının ölkəmizdə ilk dəfə olaraq HD formatda yayıma keçməsi həyata keçirilən məqsədyönlü işlərin əyani təzahürünə çevrildi.

Mətbuat sahəsində həyata keçirilən dövlət siyasətinin daha bir nümunəsi Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, fondun əsasında Medianın İnkişafı Agentliyinin, “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması, təhsillə bağlı teleradio proqramlarının yayımını təmin etmək məqsədilə “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosunun Təhsil Nazirliyinin tabeliyinə verilməsi televiziya və radio fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsinə, muxtar respublikanın mətbuat tarixində yeni inkişaf mərhələsinin başlamasına təkan verib.

### Mətbuatın dostu

Müstəqillik tariximizdən ötən illər Naxçıvan tarixində yeni bir səhifə – Naxçıvanın blokada illərində sürətli inkişafı səhifəsini açdı. İlk dəfə olaraq məhz Naxçıvan dünya tarixində və təcrübəsində blokada şəraitində yaşayaraq inkişaf etmənin modelini yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov isə bu unikal modelin müəllifi olmaqla yanaşı, həm də mətbuatın ən yaxın dostu kimi tanındı. Mətbuat işçiləri ilə keçirilən müşavirələrin birində Ali Məclisin Sədri kütləvi informasiya vasitələri qarşısında duran vəzifələrdən bəhs edərkən demişdir: ***“Televiziya, radio və qəzetlər fəaliyyətlərini üç əsas prinsip üzərində qurmalıdırlar. Onlar keçmişimizi yaşatmalı, bu günümüzü əks etdirməli, inkişafın gələcək yolunu göstərməlidirlər”.***

Hər dəfə jurnalistlərlə görüşən Ali Məclisin Sədri təkcə onların fəaliyyətini təhlil etmir, həm də onlar üçün proqram şəklində yaradıcılıq istiqamətləri də göstərir, tövsiyələrini verir. Muxtar respublika rəhbərinin çıxışlarında, tövsiyə və tapşırıqlarında səsləndirdiyi fikirlər də Naxçıvanın gələcək inkişafı ilə bağlı yazan jurnalistlər üçün ən yaxşı tezislərdir.

Naxçıvan mediası bu gün nəinki region, hətta dünya təcrübəsində də nümunəvi bir modeldir. Ötən müddətdə aparılan uğurlu media siyasətinin müəllifi olan Ali Məclisin Sədri həm də bu sahədə yüzlərlə qələm sahibinin yetişib formalaşmasının əsas səbəbkarı və himayədarıdır.

Naxçıvan Mətbuat Şurasının 2010-cu il 14 yanvar tarixdə keçirilən yığıncağında idarə heyətinin mətbuatla sıx əlaqəsinə və mətbuatın inkişafındakı xüsusi xidmətlərinə görə Ali Məclisin Sədrinə “Mətbuatın dostu” fəxri adının verilməsi haqqında qərar qəbul etməsi və bu mükafatın təqdim olunması mətbuat işçilərinin öz himayədarına bəslədiyi rəğbətin təzahürüdür.

### İnformasiya təhlükəsizliyinə gedən yol

Bu gün Naxçıvan dünya əhəmiyyətli tədbirlərin keçirildiyi mühüm informasiya məkanına çevrilib. İnformasiya məkanında əsas məsələlərdən biri də məhz informasiya təhlükəsizliyinin təmin edilməsi, fasiləsiz informasiya axınının rəqabətqabiliyyətliliyinin qorunub saxlanılmasıdır. Bu işdə teleradio və qəzetlərin, eləcə də “Nuhçıxan” İnformasiya Agentliyinin və sosial şəbəkələrin imkanlarından geniş istifadə edilir.

Müasir dövrdə internet mediası və sosial şəbəkələr istənilən sahədə ictimai fikri yönləndirən əsas vasitəyə çevrilib. Kütləvi informasiya vasitələrinin yüz minlərlə izləyicisi olan aktiv sosial şəbəkə hesabları yaradılıb. Sosial şəbəkələrdə yayılan məlumatlar qısa müddətdə böyük ictimai rəy formalaşdırır. Ona görə də jurnalistlər sosial şəbəkələrin imkanlarından məqsədyönlü istifadə etməlidirlər. İctimaiyyətə çatdırılan hər bir informasiya dəqiq və əsaslı olmalıdır. Jurnalist peşəkarlığının əsas şərti də onun mötəbər mənbələrə istinad etməsindədir. Düzgün informasiyaların yayılması, səmərəli təbliğat və təşviqat mexanizminin müəyyənləşdirilməsi medianın əsas fəaliyyət istiqamətidir. Muxtar respublika KİV-lərinin ölkə və dünya mediası ilə səmərəli əməkdaşlıq qurulması informasiya təhlükəsizliyinin davamlı təmin olunmasına xidmət edir.

Bu gün Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanmaqla və ölkə başçısı cənab İlham Əliyevin apardığı siyasəti dəstəkləməklə təkcə ərazi-iqtisadi blokadasını deyil, informasiya blokadasını da aradan qaldırmaqda mükəmməl gücünə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Həyata keçirilən tədbirlər muxtar respublikada informasiya blokadasını yarıb. Artıq muxtar respublikada baş verən hadisələr qısa müddətdə bütün dünyada yayılır.”***

### Davamediciliyin təminatı: kadr hazırlığı

Mətbuatın inkişafından danışarkən kadr hazırlığı məsələsi, xüsusilə qeyd olunmalıdır. Çünki keyfiyyət dəyişikliyinə yalnız peşəkar kadr təminatı yaratmaqla nail olmaq mümkündür. Bu səbəbdən də teleradiolar, eləcə də “Şərq qapısı” və rayon-şəhər qəzetləri Jurnalistika ixtisası tələbələrinin teleradio və qəzetlərdə fəaliyyətinə hərtərəfli şərait yaradır, istedadlı gənclər seçilərək işlə təmin olunur.

2001-ci ildən Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası fəaliyyət göstərir. Jurnalistika ixtisasının yaradıldığı ötən 20 il ərzində bu ixtisasın məzunları muxtar respublikanın müxtəlif kütləvi informasiya vasitələrində çalışaraq müasir mətbuatın formalaşmasına və inkişafına öz töhfələrini veriblər. 2011-ci ildə universitetdə yaradılmış “Media mərkəzi”nin imkanlarından səmərəli istifadə olunur. Burada fəaliyyət göstərən “Universitet” televiziyası, “Nuhçıxan” radiosu və “Yeni fikir” qəzetində gənc jurnalistlər peşələrinin sirlərinə əyani şəkildə yiyələnirlər.

Ali Məclis Sədrinin müvafiq sərəncamlarına əsasən Jurnalistika ixtisası Naxçıvan Teleradiosuna və “Şərq qapısı”na hamiliyə verilib. Tələbələrin iştirakı ilə keçirilən görüşlər, onların yaradıcılıq işində birbaşa iştirakı yaxşı kadr kimi formalaşmalarında xüsusi əhəmiyyət daşıyır. Beləliklə, bu mətbuat orqanları müvafiq ixtisasda təhsil alan tələbələrin bilik və bacarıqlarının inkişafı, eyni zamanda onların gələcəkdə peşəkar kadr kimi formalaşması və kütləvi informasiya vasitələrinin kadr potensialının yaradılması işində birbaşa iştirak edirlər.

Mətbuata qayğı gənc jurnalistlərin yetişməsi sahəsində də uğurların qazanılmasına səbəb olub. Bu gün mətbuat orqanlarında çalışanların əksəriyyətini gənclər təşkil edir. Onu da qeyd etmək lazımdır ki, dövlət teleradio və mətbuat orqanlarına, mərkəzi icra hakimiyyəti orqanlarının və digər dövlət təşkilatlarının mətbuat xidmətlərinə işçilərin müsabiqə əsasında qəbul edilməsi də ixtisaslı kadr hazırlığına əlverişli imkan yaradır.

### Naxçıvan mətbuatı: qlobal şəbəkədən yayım

İnformasiya blokadasının yarılması və qlobal şəbəkədən yayımın başlanması, Naxçıvanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin internetə çıxışı ən vacib məsələlərdən biri kimi qarşıda dururdu. 1999-cu ildə Naxçıvan Kompüter Mərkəzində internetə qoşulma imkanının əldə olunması, 2003-cü ildə *nakhchivan.az*, 2006-cı ildən etibarən *nakhinternet.az* provayderinin fəaliyyətə başlaması Naxçıvanın informasiya blokadasının yarılması istiqamətində atılan mühüm addımlar idi. 2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə etdi və Naxçıvan Dövlət Universitetində “Elektron Naxçıvan: problemlər və həllər” mövzusunda ilk elmi-praktik konfrans keçirildi. Azərbaycanda ilk dəfə Bakı-Naxçıvan arası videokonfrans bağlantısının qurulması ilə tarixi əhəmiyyətli bir hadisəyə imza atıldı. Müxtəlif illərdə keçirilən tədbirlər blokada şəraitində yaşayan Naxçıvan həqiqətlərinin dünyaya çatdırılması, qlobal informasiya məkanına qoşulması istiqamətində mühüm rol oynadı.

2010-cu ildə Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin yaradılması ilə müasir, etibarlı internet saytlarının qurulması istiqamətində də muxtar respublikada zəngin təcrübə qazanmağa, bacarıqlı mütəxəssislər formalaşdırmağa imkan verdi. İndi ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. “Naxtel” mobil operatorunun fəaliyyətə başlaması isə bütün muxtar respublika ərazisində sürətli 4G internet xidmətindən istifadə etməyə şərait yaratdı.

Naxçıvanın informasiya müharibəsində mühüm addımlarından biri 2012-ci ildə *www.serqqapisi.az* internet ünvanının yaradılması idi. 2016-cı il oktyabr ayının 17-də isə Naxçıvan Televiziyasının internet saytının istifadəyə verilməsi və televiziyanın internet üzərindən yayımının təmin olunması diyarımızın informasiya blokadasının yarılması yolunda ən böyük addım oldu.

2018-ci ildə Naxçıvan Muxtar Respublikasının ilk rəsmi informasiya agentliyi – “Nuhçıxan” İnformasiya Agentliyi və onun *nuhcixan.az* saytı fəaliyyətə başladı. 2018-ci ilin noyabr ayından Naxçıvan Radiosunun “YouTube” kanalı üzərindən canlı yayımının təşkil edilməsi radioya minlərlə dinləyici auditoriyası qazandırıb. *serqqapisi.az, nuhcixan.az, ntv.az* saytlarında gün ərzində davamlı informasiyalar, videomateriallar, fotolar və müəllif yazıları yerləşdirilir, sosial şəbəkələrdəki səhifələr mütəmadi olaraq yenilənir, informasiya yükü artırılır.

### Son söz əvəzi

Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan mətbuatı böyük inkişaf yoluna qədəm qoyub. İstər müasir avadanlıqlar, istərsə də geniş yaradıcılıq imkanları jurnalistlərə muxtar respublikanın bugünkü inkişafının təbliğatçısı olmağa əsas verir. Nuhdabandan başlayan bəşər sivilizasiyasına Naxçıvan Muxtar Respublikası haqqında dolğun informasiyanı qlobal şəbəkə üzərindən çatdırmağa qadir olan Naxçıvan mətbuatı tarixi prosesin davamı və Naxçıvanın informasiya blokadasını çoxdan yarmış kütləvi informasiya vasitələri sistemində intibahın təzahürüdür.

**Məmməd BABAYEV**

***Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

***Aşıq yaradıcılığı dedikdə, yəqin ki, mənim kimi bir çoxlarının ağlına el arasında Dədə Aşıq kimi tanıdığımız Aşıq Ələsgər gəlir, elə deyilmi? Hələ orta məktəbdə oxuduğumuz illərdə öyrəndiyimiz, bu gün də qulaqlarımızda çığnayan "Bahar fəsli, yaz ayları gələndə süsənli, sünbüllü, lalalı dağlar" misralarını dilimizdə əzbər etməklə, bir çox ədəbiyyatsevərin qəlbində Aşıq Ələsgər adlı bir dünya yaranmışdı. O dünya ki özündə ümman qədər sazın əvəzolunmaz sehrini, sözün əlçatmaz şöhrətini birləşdirərək ədəbiyyatımızda silinməz iz buraxmışdı. Biz də aşıq sənətinin bütün sirlərini öz poeziyasında əks etdirən, yaradıcılığına nəzər yetirəndə, sanki qollu-budaqlı, min bir şaxəli həmişəyaşıl ağacı xatırladan Ələsgər poeziyasından bəhrələnərək onun sirli, sehrli aşıq dünyasına şifahi xalq ədəbiyyatımızdan əldə etdiyimiz zəngin məlumatlar əsasında kiçik səyahət edib oxucularımızı maarifləndirmək istəyirik. Bu yaradıcılıq dünyasına səyahətimizdə bizə Dədə Ələsgərin şeirləri bələdçilik edərək aşığın maraqlı, keşməkeşli həyatının böyük bir hissəsini məhz aşıq sənəti kimi mənalı bir yaradıcılığa həsr etməsindən danışacaq.***



*Aşıq Ələsgər – 200*

# Sazın sehrindən və sözün şöhrətindən yoğurulan aşıq poeziyası

Aşıq sənətinin görkəmli nümayəndələrindən olan ustadlar ustadı Dədə Ələsgər yaradıcılığı bizlərə ilk olaraq onun həyatı barədə söhbət açır. O, 1821-ci ildə, Novruz bayramı ərəfəsində Göyçə mahalının Ağkilsə kəndində şair təbli Alməmməd kişinin ocağında dünyaya gəlmişdi. Kiçik yaşlarında bir müddət atasının dülgərxanasında işləmiş, daha sonra atası onu Kərbəlayı Qurbanın yanına şəyird kimi göndərmişdi. Amma burada olduğu illər onun qəlbinə elə bir eşq yarası vurur ki, təsəllini yalnız bağrına sazı basıb nakam məhəbbətinə qoşmalar, gəraylılar ifa etməklə tapır. Belə ki, burada o, ustadı Kərbəlayı Qurbanın yeganə qız övladı olan Səhnəbanuya aşiq olur. İllər ötdükcə onun gənc qəlbindəki ülvi məhəbbəti də şölələnir. Amma nə çarə? Ustadı Kərbəlayı Qurbanın qardaşı Pullu Məhərrəm bu izdivacdan xəbər tutaraq Səhnəbanunu oğlu Mustafaya alır. Və beləliklə, beşillik zəhmətdən, fədakarlıqdan sonra Ələsgər kor-peşman halda doğma kəndinə, atasının yanına qayıdır. Bəlkə də, elə buna görə o, yarım qalan nakam məhəbbətini bu cür nəzmə çəkməklə həyata gileylənmişdi: *"Gözü yaşlı, ey füqəra Ələsgər, işi əysik, baxtı qara Ələsgər. Olmadı dərdinə çarə Ələsgər, həsrət əlin o dildara yetmədi"...*

Ustadı Kərbəlayı Qurbanın yanından ayrılıb öz məmləkətinə qayıtsa da, qəlbindəki məhəbbətin acı yükünü ömrünün sonuna qədər daşıyır. Üz döndərdiyi taleyini isə bu ifadələrlə nəzmə çəkir: *"Bu dərd qaldı Ələsgərin canında, Haqq-nahaq seçilər haqq divanında. Gövhər zibil oldu nadan yanında, Dünya mana tara döndü, nə döndü!"*

Atası Alməmməd kişinin özü də şeir ovqatlı olduğu üçün nakam sevginin, məhəbbətin nə olduğuna yaxşı bələd idi. Ələsgərin saza, sözə olan marağını da anladığı üçün bilirdi ki, bu boylu-buxunlu, şux yerişli, dik qamətli oğlandan yaxşı el aşığı olar. Elə buna görə də Kəlbəcərin Qanlıkənd kəndindən ona bir saz alıb gətirir. Çox keçmir ki, gənc Ələsgərin istedadlı əlləri saza yatır. Tez bir zamanda çalıb-oxumağa, qoşmalar, gəraylılar ifa etməyə başlayır. Nə qədər istedadlı, bacarıqlı olsa da, Alməmməd kişi yaxşı bilirdi ki, Ələsgərin əsl el aşığı kimi formalaşmasında bir ustada ehtiyacı var. Elə bu səbəbdən onu bu dəfə də Göyçə mahalının məşhur aşığı olan qızılvəngli Aşıq Alıya şəyird verir. Burada olduğu beş il müddətində özünün qeyri-adi istedadı sayəsində bu müqəddəs sənətin sirlərini öyrənir. Yaradıcılığında aşıq sənətinin bütün sirlərini əks etdirib, ecazkar şəkildə cilalayıb, düzübqoşub bir-birindən maraqlı şeirləri, o cümlədən dodaqdəyməz, dildönməz, cığalı, müstəzad təcnis, gəraylı, müxəmməs, hərbə-zorba, bağlama, deyişmə, mərsiyə janrlarını sənətə çevirib sazın əvəzolunmaz sehrindən və sözün şöhrətindən yoğurulan bir xəzinə yaratdı. Aşıq Ələsgər xəzinəsi... Qısa zaman ərzində el arasında o qədər sevilir ki, xoş sədası ölkənin hər yerinə yayılır. Diyarın hər yerindən bu qüdrətli aşığın meydan deyişmələrinə şahid olmaq, rəqiblərinin ərbə-zorbasını böyük həvəslə eşitməyə gəlirlər. Məclislərin, şadlıqların bəzəyi olan bu el aşığı ilə bir yerdə olmaq, onun bir-birindən maraqlı deyişmələrinə tamaşa etmək isə insanların arzusuna çevrilir. Çünki Aşıq Ələsgər elə-belə aşıq deyildi. Onun gözündə həqiqi el aşığının yüksək əxlaqı, mənəviyyatı olmalı idi. *"Aşıq olub diyar-diyar gəzənin, əvvəl, başda pür kamalı gərəkdi. Oturub-durmaqda ədəbin bilə, mərifət elmində dolu gərəkdi"* misraları da bu fikrin həqiqətini təsdiq edir.

Aşıq Ələsgər yaradıcılığının bütün dövrlərində ali əxlaq aşılayan şeirləri yazıb-yaradaraq xalqına çatdırıb, uzun qış gecələrində yorulmadan məclislər aparıb. Yaşadığı dövrə nəzər yetirsək, görərik ki, yüzlərlə, bəlkə də, minlərlə savadsız insana mənəvi saflıq, xeyirxahlıq, gözəllik dərsi deyən ustad müəllim olub. Deməli, Dədə Ələsgər fəaliyyətinin bütün dövrlərində, ümumən, Vətənin, xalqın, bəşəriyyətin gözəl gələcəyi, firavanlığı, xoşbəxtliyi naminə çalışıb. Öz aşıq sənətinin əvəzolunmazlığını şeirləri ilə Ələsgərsevənlərə miras qoyub. *"Ələsgər haqq sözün isbatın verə, əməlin mələklər yaza dəftərə, hər yanı istəsə baxanda görə, təriqətdə bu sevdalı gərəkdi..."* misralarını isə tamamilə haqlı olaraq deyirdi.



Sənətinin əvəzolunmaz nasehi, böyük siması olan Dədə Ələsgərin yaradıcılığında el gözəllərinin tərifi böyük üstünlük təşkil edir. Səhnəbanuya olan məhəbbəti gənclik illərinin xatirələrində silinməz iz buraxsa da, ömrünün gələcək illərində yazdığı "Telli", "Güləndam", "Gülpəri", "Maral", "Ceyran" kimi şeirləri də məhz ülvi məhəbbətinin carçılarıdır. Hələ nökərlik illərindən saf eşqin nə olduğunu dərk edən Aşıq Ələsgər 40 yaşına qədər subay qalmış, evləndikdən sonra da qarşılaşdığı uğursuzluqları bədii boylarla və yanıqlı bir dildə əks etdirmişdir. Hətta ömrünün son dövrlərində *"Ələsgərnən bəd başladın cavan vaxtdan, fələk"*, – deyərkən belə uğursuz məhəbbətinə işarə etmişdir.

*Səni gördüm, əl götürdüm dünyadan,*
*Ala gözlü, qələm qaşlı Güləndam!*
*Alma yanağına, bal dodağına*
*Görən kimi ağlım çaşdı, Güləndam!*

İnsan yaşadığı yerlə bütünləşir deyər ariflər. Göyçə mahalının təmiz havası, büllur gözlü bulaqları, başıqarlı dağları Ələsgəri bir yaradıcılıq həvəskarı, el aşığı, təbiət vurğunu etmişdi. Şeirlərinin, qoşmalarının bir çoxunda məmləkətinin al-əlvan təbiətini daim nəzmə çəkərək öz sənəti məhz yurdunun gözəlliyinə bağlayırdı. Ağkilsə kəndinin xoşxasiyyət, qonaqpərvər insanları, təbiətinin füsunkar, bənzərsiz gözəlliyi bu həvəskar aşığı Dədə Ələsgər kimi yetişdirərək dünyaya tanıtdı. Bu səbəbdən o, şeirlərində daim *"Adım Ələsgərdi, Göyçə mahalım", "Adım Ələsgərdi, əslim Göyçəli", "Göyçənin qonağa çoxdu hörməti"*, – deyərək belə bir diyarın övladı olması ilə fəxr edir:

*Adım Ələsgərdi, Göyçə mahalım,*
*Dolanım başına, mən dərdin alım,*
*Hüsnün şöləsin xəstə xəyalım*
*Pərvanədi, şamistanlar dolanır.*

Yurdunun səfalı təbiəti, başıqarlı, vüqarlı dağlarının əzəməti də yaradıcılığında geniş süjet xəttini təşkil edir Aşıq Ələsgərin. *"Bahar fəsli, yaz ayları gələndə, süsənli-sünbüllü, lalalı dağlar, yoxsulu, ərbabı, şahı, gədanı, tutmaz bir-birindən aralı dağlar", "Bir ay yarım novbahardan keçəndə, car olur köysündən sellərin, dağlar! Çalxanır sonalar, çığrışır qazlar, zəmzəm zümzüməli göllərin, dağlar!"* ifadələri sübut edir onun yurduna necə də aşiq aşıq olduğunu. Uzunillər doğma el-obasından ayrı düşdüyü üçün viran qalmış məmləkətindən yenə də həmdəmi, sirdaşı olan dağlara gileylənir:*"Hanı mən gördüyüm qurğu-büsatlar?! Dərdməndlər görsə, tez bağrı çatlar; mələşmir sürülər, kişnəmir atlar; Niyə pərişandı halların, dağlar?!"*

Göyçə mahalının zəngin təbiət gözəllikləri ilə yanaşı, ustadı Aşıq Alının elmi də Aşıq Ələsgərin formalaşmasında böyük rol oynayıb. Bu sənətin ilkin sirlərini məhz ustadından öyrənən Aşıq Ələsgərin, ona əsl övlad, oğul məhəbbəti bəsləyən Aşıq Alının adları diyarın hər yerinə nam salır, meydanları həqiqi aşıq kimi lərzəyə gətirən bu iki sənətkarın qoşmaları, şeirləri dillərdə gəzir. Hətta bu iki aşığın şöhrəti, sənətlərinə olan sonsuz bağlılığı, məhəbbəti o yerə çatmışdır ki, camaat arasında "Görəsən, hansı daha üstün aşıqdır – Aşıq Alı, yoxsa Aşıq Ələsgər?" kimi ifadələr də gəzirmiş. Bu iki sənət hünərvərini meydana gətirmək, onların deyişməsinə şahid olmaq isə aşıqsevərlərin çoxdankı arzusu idi. Mahalın camaatı Aşıq Alının kəmhövsələ, insanların fikrinə tez önəm verən biri olduğunu bildikləri üçün belə bir qərara gəlirlər ki, şayəd Aşıq Alıya şeyirdi Ələsgərlə bağlı bağlağı sözlər desək, bu iki aşıq meydanda deyişməyə duracaq. Bu minvalla biz də arzumuza çatarıq. Mahal camaatının istədikləri kimi də olur. Günlərin bir günü bu iki sənətkarı qızışdırıb toyda üz-üzə gətirirlər. Aşıq Alı insanların dilində gəzən "Aşıq Ələsgər deyir ki, mən ustadım Aşıq Alıdan daha üstün aşığam" fikrini puç etmək üçün Ələsgəri deyişməyə, hərbə-zorbaya dəvət edir. Lakin aşıqlıq sənətinin sirləri ilə yanaşı, ədəb-ərkan qaydalarını da ustadından öyrənən Ələsgər bu təklifdən üz döndərmək istəsə də, ustadı imkan vermir ki, vermir. Deyişmənin ən qızğın yerində Ələsgər ustadının pis vəziyyətini görüb böyük bir təvazökarlıqla *"Başına döndüyüm, xaliqdi sübhan, haçan qüdrətindən yağ damar-damar, bir şəyird ki, ustadına kəm baxa, onun gözlərinə ağ damar-damar"* ifadələri ilə ortalığı sakitləşdirməyə çalışır. Bütün məclis Aşıq Ələsgərin ustadına olan sədaqətinə, məhəbbətinə heyran qalır. Aşıq Alı isə qurmanı anlayıb şəyirdinə cavab olaraq *"Alı deyir dünyam oldu dar indi, daha qalmayıbdı etibar indi. Məğlub olub, eyləyərəm ar indi, sellənib gözümdən yaş damar-damar"*, – deyib Ələsgərin alnından öpür. Budur Dədə Ələsgərin ustadına, sənətinə bağlılığı. Budur həqiqi el aşığı.

Dədə Ələsgər yaradıcılığını fərqləndirən digər üstün məqamlardan biri də atalar sözləri, zərbi-məsəllər, o cümlədən hikmətli fikirlərin onun şeir dili və üslubunda məharətlə istifadə olunmasıdır. Qoşmalarında, şeirlərində, gəraylılarında istifadə etdiyi atalar sözləri, məsəllər əsərlərinə müstəsna rövnəq verərək onu el dilində ifadə edilən ən gözəl sənət əsərlərinə çevirir. Bu ifadələrdən elə məharətlə, elə ustalıqla istifadə edir ki, onlar həm şeirlərin dil üslubunu sanballaşdırır, həm də axıcılığına rəvac verir: *" Dost uzaq olmaqla, könül yad olmaz", "Qonşuya kəc baxan özü ac olar", "İyid odur namusunu atmasın", "Görürsən ki, baxtın yatıb sən də yat", "Dost yolunda baran, qar olacaqdır", "Qarı düşmən bir də gəlib dost olmaz"* və sair kimi ifadələrin əsərlərdə ustalıqla ifadə edilməsi onları təsirli, fikirləri daha qüvvətli edib:

*Alçaqda dayan ki, çıxasan başa,*
*Tülküsən, aslanla girmə savaşa.*
*Gəl yapışma gücün çatmayan daşa,*
*Götürə bilməzsən, zora düşərsən.*

Xalqın həyatına yaxşı bələd olan el aşığı üçün dövrün çətinlikləri də şeirlərində əsas hədəflərdən biri idi. Ulu ozanımız insanların dərdlərinə qəlbən şərik olan şeirlərində, qoşmalarında, gəraylılarında bəzən gizli, çox zaman isə açıq şəkildə etiraz səsini ucaldaraq haqsızlıqlara, ədalətsizliklərə qarşı çıxıb. Dövrün özündən razı bəylərini, zülmkar xanlarını, molla və ruhanilərin riyakarlıqlarını, ailə və məişətdəki nöqsanları, mədəniyyətsizlikləri özünəməxsus bir dillə tənqid atəşinə tutmuş, həmçinin xalqın igid oğullarını, gözəl qızlarını, yurdumuzun zəngin təbiətini hərarətli bir qəlblə, sonsuz məhəbbətlə sevmiş və tərənnüm etmişdir. Aşıq Ələsgər zəhmətkeş kütlənin ağır, dözülməz güzəranını görmüş, azğın mülkədarların, ağaların, bəylərin qeyri-insani davranışlarına şahid olmuş, ictimai haqsızlığın, bərabərsizliyin törətdiyi bəlaları bütün qəlbi ilə hiss edərək öz yaradıcılığında əks etdirmişdir:

*On səkkiz min aləm, yetmiş iki dil,*
*Ülfət qılır bir bazarın içində.*
*Kimi atlaz geyir, tirmə qurşayır*
*Kimi üryan gəzir qarın içində.*

1918-1919-cu illərdə daşnakların yurdumuza olan hücumlarında Göyçə mahalı da bu təcavüzkarlığın qurbanı olaraq çapılıb-talanır. Əhalisinin böyük bir qismi öz el-obasından didərgin edilərək başqa yerlərdə məskunlaşmağa məcbur edilir. Bu qanlı-qadalı hadisələr Aşıq Ələsgərin taleyindən də yan keçmir. Belə ki, o, iki il müddətində Yanşaqda yaşadıqdan sonra Tərtərə köçür, bir müddət də burada məskunlaşmaq məcburiyyətində qalır. Yaşadığı hər yerdə elin camaatı tərəfindən böyük ehtiramla, hörmətlə qarşılanır. Lakin qürbətdəki heç bir gözəllik Ələsgərə Göyçəni unutdura bilmir. Həsrətində olduğu, tez-tez sazını bağrına basıb köksünə pənah apardığı dağların arzusu qəlbində qubar bağlayır. Vətən həsrətilə söylədiyi şeirlərin, qoşmaların, gəraylıların misralarının hər birində çəkdiyi hicran açıqca duyulur:

*Həsənnənə, Həsənbaba qoşadı,*
*Xoşginab yaylağı xoş tamaşadı.*
*Arsız aşıq elsiz niyə yaşadı.*
*Ölsün Ələsgərtək qulların, dağlar!*

Aşıq Ələsgər "Olmaz" rədifli qoşmasında da *"varlıqda dost, yoxluqda kənar"* olan müxənnətlərdən, nadinc insanlardan uzaq gəzməyi məsləhət görərək deyirdi: *"Ələsgər, mətləbin xudadan istə, kərəm olmaz müxənnəsdə, xəsisdə, bəylik, göylük, səylik olan məclisdə, qaç ki, orda xeyir-bərəkət olmaz"*.

Amma əldən nə gəlir? Düşmənin xalqının başına açdığı müsibətlər, övladının qaçaq həyatı yaşamağa məcbur olması sənin də taleyini alt-üst etmişdi, ustad! *"Özüm aşıq oldum, oğlum gülləçi"*, – deyərək övladın Bəşirin işlədiyi acı cinayəti qəlb yanğısı ilə nəzmə çəkərək *"Nagah badi-sərsər əsdi üzümə, ömür bostanımın tağı kəsildi, öz əlimdən xəta dəydi gözümə, bədəndən qolumun sağı kəsildi"*, – deyib şikayətlənirdin bu dünyanın sərt üzünə. Bəlkə də, buna görə qismətinin keşməkeşliyindən, dərdindən, kədərindən dünyaya üz döndərmişdin. 105 illik bərəkətli ömrün yaşadıqların ucbatından səni cana doydurmuşdu. Bəlkə də, buna görə ömrünün son illərində *"Səksəni, doxsanı ötübdü yaşım, qovğaya düşübdü bəlalı başım. Əzrail həmdəmim, məzar yoldaşım, daha köç təbilin çal, qoca baxtım!"* – deyərək gəlimli-gedimli, bir ucu ölümlü dünyadan üz döndərib gileylənmişdin bu həyata. Amma sən ədəbiyyatımızda elə bir silinməz iz buraxmısan ki, bundan sonra da şeirlərin, qoşmaların, gəraylıların dillərdə gəzərək səni yaşadacaq, yaşatdıracaq...

Ədəbiyyatımızda aşıq sənətinin görkəmli ustadı, yüksək mənəvi ideyaların həqiqi carçısı olan Aşıq Ələsgər irsinin öyrənilməsi, onun qorunub yaşadılması üçün dövlətimiz tərəfindən məqsədyönlü addımlar atılmış, uğurlu layihələr icra olunmuşdur. Azərbaycan folklorşünaslarının, ədəbiyyatşünas alimlərin təşəbbüsləri ilə Aşıq Ələsgərin əsərlərindən ibarət kitabların nəşr edilməsi sözügedən məqsədyönlü layihələrin davamıdır. Bununla belə, 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunmuş, bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən onun əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və nəşr etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamı ilə bu il görkəmli söz ustadının, el ozanının yubileyi ölkəmizdə yüksək səviyyədə, təntənəli surətdə qeyd olunur. Dövlət Sərəncamında deyilir: *"Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərlər ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir... Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə qədirbilənliklə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyi məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir"*.

Aşıq Ələsgərin 200 illik yubileyinin ölkəmizlə yanaşı, muxtar respublikamızda da geniş qeyd olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmişdir ki, bu da görkəmli el aşığının ədəbi irsinin diyarımızda təşəkkül tapmasına geniş surətdə rövnəq verən əsaslı addımdır.

*Bəli, əziz oxucum. Aşıq sənətinin həmişəbaharı, görkəmli el ağsaqqalı, xalq ozanı Dədə Ələsgərin milli-mənəvi irsi hər birimiz üçün maraqlıdır, dəyərlidir. Şeirlərində türkçülük ideologiyasının zəngin xüsusiyyətlərini, dil zənginliyini, xalq-məişət üslubunun rəngarəng çalarlarını ustalıqla ifadə edərək* "Ələsgərəm hər elimdən halıyam" *misraları ilə sənətinin padşahı olduğunu,* "Mən istərəm alim, mömin düz ola, meyli haqqa doğru, yola düz ola", *– deməklə dəyərli nəsihətlərini bir daha nəzmə çəkir. Ondan bizə həyat dərsi kimi, əbədi yaddaşlarda qalan misralar xalq ruhundan süzülüb gəlməklə hələ neçə yüzilliklər sonra da könlümüzü, ruhumuzu oxşayacaq.*

**Məcid RƏŞADƏTOĞLU**

***“Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar”.*** *Bu müdrik kəlmələri ümummilli liderimiz Heydər Əliyev 1996-cı il aprelin 1-də Prezident sarayında Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 3-cü ildönümü ilə əlaqədar rayon sakinlərinin nümayəndələri ilə görüşündə demişdir. O gün gəldi, uzaqgörən, dahi liderin dedikləri gerçəyə çevrildi. Heydər Əliyev yolunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin qətiyyəti, gücü, iradəsi sayəsində Kəlbəcər rayonu 25 noyabr 2020-ci ildə Ermənistan işğalından azad olundu…*

# Altı da, üstü də qızıl, cənnətməkan Kəlbəcər

### Qədim insan məskəni, zəngin meşələr, qiymətli və əlvan metallar diyarı

Kəlbəcər dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə, Tərtər çayı vadisində, Kiçik Qafqaz dağlarında yerləşir. Qərbdə Ermənistan, şimalda Daşkəsən, Xanlar (Göygöl), Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Mənbələrə əsasən deyə bilərik ki, sahəsi 3054 kvadratkilometr olan rayonda bir şəhər, bir şəhər tipli qəsəbə (İstisu), 145 kənd vardı. Ağdərə rayonunun 20-yə qədər kəndi də Kəlbəcər inzibati bölgüsünə daxildir. 8 avqust 1930-cu ildə inzibati rayon statusu alan Kəlbəcərin əhalisinin sayı 94,1 min (01.01.2020) nəfərdir. Kəlbəcər əhalisinin 98 faizini azərbaycanlılar, 2 faizini isə ruslar və başqa millətlər təşkil edir.

“Kəlbəcər” toponimi qədim türk dilində “çay üstündə qala” mənasını verir. Kevli “çayın üstü”, çər/car “qala” deməkdir. Rayon ərazisində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş əmək alətləri, qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri buranın qədim insanların yaşayış məskənlərindən biri olduğundan xəbər verir. “Türk qəbiristanlığı” adı ilə tanınan bir neçə qədim məzarlıq (bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və digər kəndlərin ərazisindədir) Kəlbəcərin türk tayfalarının məskəni olduğunu göstərir. Burada ilk məskən salan albanların izləri də, onun qayaüstü təsvirlərində və küp qəbirlərində ermənilərin işğalına qədər qalmaqda idi. Kəlbəcər antik dövrün abidəsi kimi, 1960-cı illərdən öyrənilməyə başlanılıb. 1976-cı ildə Kəlbəcər qaya təsvirlərinin yerləşdiyi ərazinin yaxınlığında Azərbaycanda ilk dəfə olaraq yaşayış yeri aşkar edilib.

Zəngin meşələr diyarı olan Kəlbəcərdə 24 min hektar meşə ərazisi, yüzlərlə mineral bulaqlar mövcuddur. Min bir dərdin dərmanı olan İstisu, başından qarı, tufanı, çəni əskik olmayan Murovdağ, görünüşü ilə diqqəti cəlb edən Dəlidağ, ən böyük çay Tərtərçay məhz bu ərazidə yerləşir. O zaman Qafqaz geologiyasının atası hesab edilən V. Avixin Kəlbəcər haqqında dediyi “Kim Tərtərçay dərəsi boyunca seyr etməmişdirsə, İsveçrənin gözəlliyinə yalnız o, məftun ola bilər” sözləri heç də təsadüfi deyil. Elə təkcə təbiətin Kəlbəcərə bəxş etdiyi hədiyyə, min bir dərdin dərmanı olan İstisu mineral bulaq suyu kifayət edir ki, Kəlbəcəri hamı tanısın. Kəlbəcər həm də faydalı qazıntı yataqları ilə məşhurdur. Onlardan ən qiymətlisi qızıl və civə yataqlarıdır. Ağduzdağ filiz sahəsi, Mehmana filiz rayonu, Zod-Tutxun filiz rayonu qızılı, Şorbulaq və Ağyataq, Lev kəndləri, Tanrıyoxuşu dağı civəsi ilə zəngindir. Məlumdur ki, 27 il idi ki, Kəlbəcərin zəngin qızıl yataqları, təbii sərvətləri ermənilər tərəfindən talan edilir, mənimsənilirdi. Kəlbəcərin ötən il işğaldan azad olunması ilə buna da son qoyuldu.



### Kəlbəcər necə işğal edilmişdi?

Bunun cavabını ən dəqiq formada ümummilli liderimiz Heydər Əliyev vermişdir: ***“Kəlbəcər öz coğrafi mövqeyinə görə elə bir yerdir ki, oranı işğal etmək, sadəcə olaraq, mümkün deyildir. Təsadüfi deyil ki, Ermənistanın işğalçı dəstələri Azərbaycana 1988-ci ildə hücum etmiş, Kəlbəcər isə 1993-cü il martın sonunda işğal olunubdur. O vaxt Azərbaycanın bir çox bölgələri, o cümlədən bütünlüklə Dağlıq Qarabağ, Kəlbəcərlə qonşu olan Laçın rayonu işğal edilmişdir. Amma Kəlbəcər bir ada kimi qalmışdır. Bir tərəfdən, doğrudan da, coğrafi mövqeyinə görə, ikinci tərəfdən isə kəlbəcərlilərin özlərinin qəhrəmanlığına görə. Deməli, onu saxlamaq, qorumaq mümkün idi və Ermənistanın işğalçı qüvvələrini Azərbaycanın zəbt edilmiş torpaqlarından, o cümlədən Dağlıq Qarabağdan, Laçından, başqa yerlərdən çıxartmaq üçün, şübhəsiz ki, Kəlbəcəri strateji nöqteyi-nəzərdən qoruyub saxlamaq lazım idi. Bu, bir nömrəli vəzifə idi. Ancaq təəssüf ki, bunu o vaxt etməyiblər. ...Xəyanət, satqınlıq, ayrı-ayrı məqsədlər olubdur”.***

Aydın səbəblərdən Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edildi. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovuldu. Rayonun 54 mindən artıq əhalisi məcburi köçkün düşmüş, 321 nəfər əsir və ya girov götürülmüş, 511 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100-lərlə maşın, texnika və sair talan edilmiş və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdır.

Kəlbəcərin ermənilər tərəfindən dağıdılmış mədəni abidələri içərisində Vəng kəndi ərazisində Alban məbədi, Çərəkdar kəndində Alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisində Lök qalası, Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və başqaları vardır. Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etsə də, həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilmədi.

2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz böyük Qələbə Kəlbəcərin də bir güllə atmadan geri qaytarılmasında mühüm rol oynadı. Ötən il noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Kəlbəcərin 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılsa da, Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı. Məğlubiyyətlə barışa bilməyən ermənilər fürsətdən istifadə edərək bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirdi, evləri, meşələri vəhşicəsinə yandırdı. Nəhayət, 2020-ci il 25 noyabr tarixində Kəlbəcər rayonu işğaldan azad edildi, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olaraq nəzarəti ələ aldı.

### Kəlbəcərə həyat qayıdır

Dövlətimizin başçısının xüsusi diqqəti ilə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilir. Bu il avqustun 16-da Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı bu bir daha öz təsdiqini tapdı. Belə ki, Kəlbəcərə gedən yol boyunca tunellər tikilir, enerji infrastrukturu yaradılır. Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində yenidən qurulan 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası gələcəkdə Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji” zonasına çevrilməsinə öz töhfəsini verəcək. O cümlədən heyvandarlığın, eləcə də kənd təsərrüfatının digər sahələrinin inkişafı gələcəkdə rayon ərazisində yaşayan insanların rifah halının yaxşılaşmasına mühüm rol oynayacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Mədəni tədbirlərin keçirilməsi diqqətdə saxlanılır

***Mədəniyyətin təbliği və sakinlərin mədəni istirahətinin təşkili məqsədilə ötən ay muxtar respublikada müxtəlif məzmunlu tədbirlər keçirilmiş, müxtəlif sərgilər nümayiş etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Təhsil nazirliklərinin, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin təşkilatçılığı ilə görkəmli qələm sahibi Hüseyn Cavidin anadan olmasının 139-cu ildönümü münasibətilə Hüseyn Cavid Poeziya Günü qeyd edilmişdir. Bundan başqa, Naxçıvan Dövlət Filarmoniyasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri ilə birgə sağlamlıq imkanları məhdud xüsusi istedadlı uşaqlar arasında “Əl-ələ daha güclüyük!” şüarı ilə yaradıcılıq müsabiqəsi təşkil olunmuş, qaliblər və fərqlənən iştirakçılar mükafatlandırılmışlar.***

Ali Məclis Sədrinin müvafiq Sərəncamına uyğun olaraq nazirliyin hamiliyinə verilmiş Naxçıvan Müəllimlər İnstitutunun Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə təhsil alan tələbələri üçün “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan Nizami Gəncəvinin “Hikmət və nəsihətləri” kitabının müzakirəsi keçirilmiş, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun həmin ixtisaslar üzrə təhsil alan tələbələrinə açıq dərslər keçilmişdir.

Ay ərzində “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil edilməsi üçün 1 yeni xalçanın pasportlaşdırılması ilə bağlı müvafiq iş aparılmış, reyestrə 33 xalça haqqında məlumat daxil edilmişdir. Həmin reyestr sisteminə daxil olan 4 xalça haqqında məlumatlar sosial şəbəkə hesablarında paylaşılmışdır.

Hesabat ayında Şərur Rayon Mədəniyyət Şöbəsinin tabeliyindəki uşaq musiqi məktəblərinin saz ixtisası üzrə müəllim və şagirdlərinə Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ustad dərs təşkil olunmuş, Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən aşığın əsərlərinin müzakirəsi keçirilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin, müəssisə və təşkilatların muzeylərlə tanışlığı təmin edilmiş, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqlarına, rəsmi nümayəndə heyətlərinə nümunəvi muzey xidməti göstərilmişdir. Oktyabr ayında muxtar diyarımızda fəaliyyət göstərən muzeyləri 78 min 721 yerli, 32 min 9 əcnəbi olmaqla, ümumilikdə, 110 min 730 tamaşaçı ziyarət etmiş, muzeylərə 303 yeni eksponat daxil olmuşdur.

Aid təşkilatlarla birgə oktyabr ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat və Naxçıvan Dövlət Tarix muzeyləri ilə muxtar respublikanın bir neçə ümumtəhsil müəssisəsi arasında interaktiv dərslər keçirilmişdir. Ötən ay muxtar respublikanın tarix-diyarşünaslıq muzeylərində çalışan əməkdaşların kənd mərkəzlərində sakinlərlə görüşü olmuş, maarifləndirici söhbətlər aparılmışdır.

Ötən ay muzeylər tərəfindən müxtəlif mövzulardan bəhs edən 367 material hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

“Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitabların bir neçəsinin 1-i onlayn olmaqla, ənənəvi müzakirəsi təşkil olunmuşdur. Ay ərzində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və rayon (şəhər) MKS-lər tərəfindən 6 tədbir keçirilmiş, 36 sərgi təşkil edilmişdir.

“Mütaliə günü” və “Nağıl günü” ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 46 tədbir keçirilmiş, ümumilikdə, sağlamlıq imkanları məhdud 24 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Ötən ay nazirliyə Azərbaycan Respublikası Kitabxana Kollektorundan 85 adda 1922 nüsxə çap məhsulu daxil olmuş və aidiyyəti üzrə paylanmışdır. Ay ərzində kitabxanalara 263 adda 1891 nüsxə çap məhsulu daxil olmuş, 541 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 9 min 300, kitab verilişi isə 48 min 705 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 701 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 27 min 699-a, 40 kitab şəbəkəyə işlənərək bu qəbildən kitabların sayı isə 3 min 561-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan, ümumilikdə, 875 oxucu istifadə etmişdir.

Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz və Naxçıvan Dövlət Film Fondu tərəfindən ötən ay, ümumilikdə, xalq yaradıcılığı ilə bağlı 6 videomaterial hazırlanmış, sosial şəbəkələrdə paylaşım edilmişdir. Babək Rayon Mədəniyyət Şöbəsinin təşkilatçılığı ilə Xalq artisti İlham Namiq Kamalla Babək Rayon Xalq Teatrı əməkdaşlarının onlayn görüşü olmuşdur. Dövlət Film Fondu tərəfindən Kazım Ziya adına Ordubad Rayon Xalq Teatrının hazırladığı “Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş kompozisiya”nın, həmçinin Culfa Rayon Mədəniyyət Şöbəsinin və Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin təşkilatçılığı ilə “Xalq yaradıcılığı günü” çərçivəsində nümayiş olunan xalq yaradıcılığı nümunələrinin videoçəkilişləri aparılmışdır.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı N.Qoqolun “Müfəttiş” əsəri əsasında hazırladığı tamaşanı teatrsevərlərə təqdim etmişdir. Bundan başqa, ötən ay M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla və Naxçıvan Dövlət Uşaq teatrları Nizami Gəncəvinin “Yeddi gözəl”, “Sirlər xəzinəsi” əsərlərindəki “Fitnə” və “Ovçu ilə itin və tülkünün hekayəti”, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı isə K.Çapekin “Ana” əsəri əsasında hazırlanan tamaşaların, eləcə də Naxçıvan Dövlət Filarmoniyası konsert məşqlərini davam etdirmişdir.

Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri Mühasiblərin və auditorların VII Avrasiya forumunda, Hüseyn Cavid Poeziya Gününə həsr olunmuş tədbirdə və “N” hərbi hissənin əsgər və zabitləri qarşısında konsert proqramı ilə çıxışlar etmişlər. Nazirliyin tabeliyində olan müəssisələrdə çalışan gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə “Xudafərin” Gənclər Birliyinin üzvləri tərəfindən “Qarabağ Azərbaycandır!” adlı ədəbi-bədii kompozisiya hazırlanaraq nümayiş etdirilmiş, nazirliyin Gənclər Təşkilatının üzvləri arasında “Yaşa və öyrən – Xəzaniyyə” intellektual bilik yarışı keçirilmişdir.

Ötən ay müasir iş şəraiti ilə təmin olunmuş Babək rayonunun Araz kənd mərkəzindəki kənd kitabxana filialı, Şərur rayon Dərvişlər kənd mərkəzindəki kənd kitabxana filialı və kənd mədəniyyət evi istifadəyə verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Düdəngə kənd sakini Şirəliyev Əlövsət Əli oğlunun adına olan JN-1216 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kəndində yaşamış Abdullayeva Nənəxanım Həsən qızının adına verilmiş JN-683$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Mahmudoba kəndində Zeynalov Məhəmmədəli Şahhüseyn oğlunun adına verilmiş JN-216$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 987